# mr.Seal SD®

## Sulfata dayanıqlı sement əsaslı, polimer qarışıqlı, tək komponentli, evlərin çirkab sularının töküldüyü tikililərdə istifadə olunan su izolyasiya materialı

Məhsul kodu: 30.25.011




### Məhsul haqqında

**mr. Seal SD®** sulfata dayanıqlı sement əsaslı, polimer qatqılı, tək komponentli, çirkab sularının içərisində olan kimyəvi maddələrə və mexaniki təsirlərə qarşı davamlı, beton və sement əsaslı suvaqlar üzərinə daxildən və ya xaricdən tətbiq olunan su izolyasiya materialıdır.

### İstifadə sahələri

- Daxili və xarici yerlərdə, şaquli və üfüqi səthlərdə
- Evlərin çirkab sularının töküldüyü dərinliyi 15 m-dən az olan tikililərdə, mr.Tamir® ilə təmir edilmiş səth üzərinə, keçirməməzlik üçün son qat örtüyü olaraq
- Kanalların üst səthlərinin qorunması və su sızmalarının qarşısını alacaq örtüklərdə
- Evlərin çirkab sularının töküldüyü tikililərdə və dəmir-beton boruların örtüklənməsində
- Çirkab su kanal və borularının sulfat təsirlərinə (hücumlarına) qarşı qorunmasında
- Yağış suyu və çirkab su anbarlarında istifadə olunur

### Üstünlükləri

- Sulfata qarşı davamlıdır
- Asan hazırlanır və tətbiq olunur
- İşlənəbilmə müddəti uzundur
- Mexaniki müqaviməti yüksəkdir
- Fırça, mala və ya püskürtmə aləti ilə tətbiq oluna bilər
- Su buxarı keçirir
- Büzülməz, çatlamaz
- Donma- ərimə prosesinə davamlıdır

### Hazırlanması

İstifadə olunacaq su təmiz bir qaba doldurulur və həmin qaba mr.Seal SD® yavaş- yavaş əlavə edilərək 400-600 dövr/dəq-lik bir mikserlə 3-5 dəqiqə, düyünlər həll olunana qədər qarışdırılır. Təxminən 3-5 dəqiqə dincəlməyə qoyulduqdan sonra təkrar 30 saniyə qarışdırılaraq məhsul istifadəyə hazır hala gətirilir.

### Texniki göstəriciləri

| | |
|---|---|
| **Materialın tərkibi** | **Mineral dolğular, polimer modifikasiyalı qatqılar və sulfata qarşı təsirli xüsusi sementlər** |
| Rəngi | Boz |
| Qopma müqaviməti | $\geq$ 1, 00 N/mm² |
| Təzyiqli suya davamlılığı | 0,50 bar(müsbət) |
| Tətbiq olunacaq səthin istiliyi | +5°C+25°C |
| Xidmət istiliyi | -20°C +80°C |
| Tamamlanma müddəti | 3-5 dəqiqə |
| İstifadə müddəti | 30 dəqiqə |
| İstifadəyə verilməsi<br>Mexanik davamlılıq<br>Su keçirməliyi | 2 gün<br>3 gün |

Yuxarıdakı qiymətlər +23°C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### İstifadə təlimatı

Səthin hazırlanması;

Tikintilərin su ilə təmasda olan sement əsaslı səthlərinin sağlam, quru, təmiz, tozsuz və daşıyıcı olmasına diqqət edilməlidir. Səth, yapışmanı zəiflədəcək bütün yağ və parafin qalıqlarından təmizlənməli və səthdə artıq qırıntılar olmamalı. Səthdəki artıq dəmir və taxta parçaları çıxarılmalı və əmələ gələn boşluqlar mr.Waterstoper® və ya mr.Tamir® ilə doldurulmalıdır. Künc və kənarlar ən az 4 sm radiusunda düzəldilməlidir. Tətbiq ediləcək səth su ilə isladılaraq suya doyurulmalı, lakin səthdə artıq su qalmamalıdır. Tətbiq zamanı material suyunu itirər və

tutqun bir görünüş alarsa, bu, səthin yetərincə isladılmadığını ya da sürətli quruduğunu göstərir. Belə olduqda, havanın isti olduğu ya da materialın külək təsirində olduğu vəziyyətlərdə yalnız ilk qat üçün materialın qarışdırma suyu 10% artırıla bilər. Hər bir qat sürtülmədən öncə altdakı qatın quruması gözlənilir. Qatlar bir-birinə əks istiqamətdə sürtülür.

## Qarışdırma nisbəti

| mr.Seal SD® | Fırça istifadə edərək | Mala istifadə edərək |
|---|---|---|
| Suyu miqdarı | 5,75 litr | 4,75 litr |
| Qarışığın sıxlığı | 2,00 kq/litr | 2,06 kq/litr |

## Sərfiyyat

| | Min. Qalınlıq | Min. Tətbiq miqdarı (toz məhsul) |
|---|---|---|
| Nəmli səthdə | 2,00 mm | 3,25 kq/m$^2$ |
| Təzyiqsiz sularda | 2,50 mm | 4,06 kq/m$^2$ |
| 15 m-dən dərin olmayan su anbarlarında | 3,50 mm | 5,69 kq/m$^2$ |

## Alətlərinin təmizlənməsi

Tətbiq edilmədən sonra istifadə edilən alət və ləvazimatlar su ilə təmizlənməlidir. mr.Seal SD® bərkidikdən sonra ancaq mexanik üsullarla səthdən təmizlənə bilər.

## Saxlama şərtləri

Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə saxlanmalıdır.

## Saxlama müddəti

Düzgün saxlama şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar xaricindəki və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

## Net: 25kq ±2%

K-Q TSE-ISO-EN 9000

AZS